


VÜQAR ADİL

***"Amma" öz qucağını bir çox hisslər üçün açıq saxlayır: bəhanələr, gümanlar, boş vədlər, yalanlar, ehtimallar... Bunlar və bənzərləri həmişə "amma" sözünə arxayındır, onun sayəsində yaşayırlar. "Amma" olmasaydı, "mütləq"lər, "hökmən"lər, "mümkün"lər onları çoxdan sıradan çıxarardı. "Amma"nın varlığı bir çox insanlar kimi, bir çox hisslərin də işinə yarayır...***

Yeni bir cığır açmağa, nəyisə kökündən dəyişməyə qadir olan fikirləri ifadə edən neçə-neçə cümlələr var. Dəyəri heç bir ölçüyə gəlməyən möhtəşəm cümlələr... İnsana öz gücünün nələrə çatdığını göstərən, insanı həvəsləndirən cümlələr... Təəssüf ki, bu cümlələrin çoxu nöqtə ilə bitmir, bir vergül qoyulur, fikir davam etdirilir. Cümlənin ilk tərəfindəki parlaq fikirlər, ideyalar ikinci tərəfdə yer alan bəhanələrin, etirafların kölgəsində qalır, dəyərini itirir. Belə cümlələrdə, adətən, birinci və ikinci tərəf arasında bir söz işlənir: "amma"...

"Amma"... İlk baxışda adi bir bağlayıcı kimi görünsə də, adilikdən çox-çox uzaqdır. Cəmi dörd hərfdən ibarət bu sözün oynadığı rol olduqca böyükdür. "Amma" bir-birinə zidd görünən fikirləri bir cümlədə birləşdirir, onları qarşı-qarşıya qoyur. "Amma" işləndiyi cümlənin təsir gücünü dəyişir, onu mürəkkəbləşdirir.

"Amma" keçiddir, özündən sağda və solda olan fikirlərin arasında yerləşir. Fikirlərini, planlarını ifadə edən natiq "amma"dan sonra qarşısını kəsən, onu durduran maneələrdən bəhs edir. Birinci tərəfdə arzular, planlar, ikinci tərəfdə isə real və ya qeyri-real səbəblər... Fikirlər nə qədər parlaqdırsa, səbəblər də bir o qədər müxtəlif, çoxmərtəbəli olur.

"Amma"nın işləndiyi bir çox cümlələr yüksələn xətlə davam etmir. Əksinə, xətt zirvədən aşağıya doğru uzanır. Belə cümlələr yüksəliş vəd etmir, tənəzzüldən xəbər verir.

"Amma" iş görmək istəməyənlərin can atdığı ən böyük sığınacaqdır, bəlkə də... Bu söz olmasaydı, nədən yapışardıq, əlimizdə olduğu halda, etmədiyimiz işlər üçün bəhanələri nə ilə bildirərdik? Lakin "amma" sözü var, sevə-sevə işlədirik, gücsüzlüyümüzü onunla bildiririk. Sonra da uydurduğumuz səbəblərə özümüz qane oluruq. Özümüzü razı salırıq. "Amma" bir çoxumuz üçün təsəllidir.

"Amma" öz qucağını bir çox hisslər üçün açıq saxlayır: bəhanələr, gümanlar, boş vədlər, yalanlar, ehtimallar... Bunlar və bənzərləri həmişə "amma" sözünə arxayındır, onun sayəsində yaşayırlar. "Amma" olmasaydı, "mütləq"lər, "hökmən"lər, "mümkün"lər onları çoxdan sıradan çıxarardı. "Amma"nın varlığı bir çox insanlar kimi, bir çox hisslərin də işinə yarayır.

Düşünün... "Mən sənə kömək edərəm" cümləsində nə qədər ümid gizlənib. Qarşıdakı insan çıxılmazlığın son həddində dayanıbsa, bu cümlə onun üçün havadan, sudan da əhəmiyyətlidir. Ola bilsin ki, həyatda eşitmək istədiyi tək cümlə elə budur. Bu cümləni eşidəndə sevinir, ayağı yerdən üzülür, amma... Amma eşitdiyi "amma" sözü onun qurduğu ümid qalasını yerlə bir edir, gözündəki işığı aparır. "Mən sənə kömək edərəm, amma...". "Amma" yenə öz işini görür.

Çarə "amma" sözünü lüğətdən silməkdirmi? Təbii ki, xeyr. Dərindən düşünsək, görərik ki, "amma" həmişə bəhanələr üçün yol açmır. Cəsarətli fikirlər üçün bələdçilik edən "amma"lar da az deyil. "Məndən

əvvəl heç kim bunu bacarmamışdı..." cümləsindən sonra gələn və fikri tamamlayan "amma" sözünü tanıdığımız neçə nəfər işlədib? Bu cümlədə cəsarət var. Bəli, "amma" cəsarəti də göstərir, iddia da ifadə edir.

Lazım olan "amma" sözünün məna genişliyini qavramaqdır. "Amma"nı ancaq bəhanələri himayə edən söz kimi qələmə vermək tamamilə haqsızlıq olar. Bu söz çarəsizlik ifadə edən sönük cümlələrlə möhtəşəm nəticələri, çətinliklərlə mübariz qələbələri də əlaqələndirir. "Amma" mümkünsüz görünənlə mümkünlük arasında da keçid yaradır.

"Amma" həm də insanlar arasında seçilənlərin seçimidir. Hamının kənara çəkildiyi bir vaxtda irəli atılanlar üçün də "amma" var. Həmin "amma"lar insanı qəhrəman edir. Çünki bəhanələr tapmaq asan, yollar axtarmaq isə çətindir. "Amma" həm də çarələri, çıxış yollarını göstərir.

"..., amma mən geri çəkilməyəcəm" cümləsinin əvvəlinə yüzlərlə fikir yazmaq mümkündür. Nəticə isə dəyişmir. Burada əzm var, cəsarət var, mübarizlik var. "Amma" düzgün yerdə işlədilir və bu söz onu seçəni zirvələrə doğru qaldırır.

"Amma"sız yaşamaq mümkün olardı, amma hazırda bu mümkün deyil. Rəqabətlərlə dolu olan bu dünyada atdığımız hər bir addım önümüzə seçimlər qoyur, qarşımıza fürsətlər çıxarır. Qərar vermək isə bizə aiddir. Qərarımızda "amma" olsun, amma bəhanələr, səbəblər gətirməsin. "Amma" olsun, amma bizi çətinliklərin üzərinə aparsın, uğurlara səsləsin!..

***"Amma" həm də insanlar arasında seçilənlərin seçimidir. Hamının kənara çəkildiyi bir vaxtda irəli atılanlar üçün də "amma" var. Həmin "amma"lar insanı qəhrəman edir. Çünki bəhanələr tapmaq asan, yollar axtarmaq isə çətindir...***

